BEST BEARINGS COMPANY



# Hərəkət Olan Hər Yerdə

www.bestbearings.az



# BİZİM HAQDA

## Mövqeləndirmə

Sənaye komponentləri sahəsində etibarlı və uzunmüddətli tərəfdaş kimi çıxış edirik. Keyfiyyətə əsaslanan həllər təqdim edirik.

## Əsas məqsəd

Bazarda lider və güvənilən marka olmaq. Müştərilər üçün uzunömürlü və effektiv həllər yaratmaq.

İndi zəng edin
+994 50 250 20 16

## Missiya

Müştərilərə yüksək keyfiyyətli və etibarlı məhsullar təqdim edərək onların iş proseslərini fasiləsiz təmin etmək.

## Xidmət sahəsi

Şirkətimiz ehtiyat hissələrinin seçimi, təchizatı və operativ çatdırılmasını təmin edir. Texniki dəstək və optimal həllərlə avadanlıqların etibarlı və uzunömürlü işləməsinə xidmət göstəririk.

veb saytımıza daxil olmaq üçün klikləyin

BBC

# BEST BEARINGS COMPANY

## 25 İL -dən artıq təcrübə...

*More than 25 years of experience..*

# Məhsul Kataloqumuza xoş gəlmisiniz

Şirkətimiz sənaye komponentləri sahəsində etibarlı təchizatçı olaraq, yüksək keyfiyyətli yastıqlar, güc ötürücü kəmərlər, konveyer kəmərlər, salniklər, manjetlər və O-ringlərin satışını həyata keçirir. Peşəkar yanaşma və davamlı inkişaf prinsipləri ilə müştərilərimizə dəyər qatırıq.

# Bizim Haqda

Biz “Best Bearings Company” MMC olaraq 25 ildən artıqdır ki, Azərbaycan və Orta Asiya bazarlarında yastıqlar, kəmərlər, kipləşdirici və güc ötürücü elementlərin təchizatı sahəsində uğurla fəaliyyət göstəririk. Şirkətimiz dünyanın TOP10 siyahısına daxil olan markaların rəsmi nümayəndəsidir və eyni zamanda yerli istehsalçılarımızı premium keyfiyyətli məhsullarla təmin edir.

Geniş məhsul portfelimiz və güclü tərəfdaşlıq şəbəkəmiz sayəsində müştərilərimizə müxtəlif sənaye sahələri üçün etibarlı və uzunömürlü həllər təqdim edirik. Təklif etdiyimiz hər bir məhsul keyfiyyət, dəqiqlik və etibarlılıq baxımından yüksək standartlara cavab verir. Eyni zamanda istehsalçı tərəfindən zəmanətlə təmin olunur.

Peşəkar komandamız müştərilərin ehtiyaclarını dərindən analiz edərək ən uyğun məhsul və həlləri təklif edir, operativ çatdırılma və davamlı dəstək ilə əməkdaşlığın dəyərini artırır.

Məqsədimiz yalnız məhsul təchiz etmək deyil, eyni zamanda müştərilərimiz üçün uzunmüddətli, etibarlı və qarşılıqlı faydalı tərəfdaşlıq qurmaqdır.







**Hərəkətin olduğu hər yerdə etibarlı həll**

# Rəhman Zeynalov

Təsisçi və Direktor

*Founder and Director*



Rəhman Zeynalov 1985-ci ildə Cəlilabad rayonu Xəlilabad kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra həyat elə gətirdi ki, Rusiyaya, atasının yanına getməli oldu.

Onun ilk fəaliyyəti atasının yanında işləmək və ehtiyat hissələrinin satışında iştirak etməklə başlayıb. Rəhman qısa zamanda bazarı analiz edərək ticarət bacarıqlarını inkişaf etdirdi və məhsulların alış-satış prosesində aktiv iştirak etməyə başladı. Bir müddət sonra Rusiyada müxtəlif şirkətlərlə əməkdaşlıq edərək həm təchizat, həm də satış sahəsində təcrübə qazandı.

Daha sonra o, Rusiyanın müxtəlif şəhərlərində ticarətə başladı. Bir neçə il sonra Rusiyanın sərhədini aşaraq Qazaxıstanda da bir neçə layihəsini həyata keçirdi. Eyni zamanda digər hədəfi doğma Vətəni Azərbaycana gəlmək və Azərbaycanda da öz işini qurmaq olmuşdur. 2007-ci ildə Bakıya gələrək şəhəri araşdırmış və 8-ci kilometr avtomobil bazarında mağaza açaraq fəaliyyətini daha da genişləndirmişdir. Bakıda olduğu müddətdə iranlı iş adamları ilə tanış olmuş və Rusiya ilə İran arasında yeni razılaşmalar əldə etmişdir.

2007-ci ilin sonunda Rusiyada böyük bir şirkət tərəfindən gələn təklif onda maraq yaratdı və Bakıdakı işini qardaşına əmanət edərək razılaşdığı layihə üzrə Çinə səfər etdi. Çində bir müddət axtarış apardıqdan sonra istədiyi məhsulların istehsalçılarını tapdı və tapdığı bir neçə istehsalçı ilə danışıq quraraq birbaşa istehsalçılarla əməkdaşlıq yaratdı. Bu isə onun biznesində böyük dönüş nöqtəsi oldu. Rusiya, Ukrayna və Qazaxıstanın böyük şirkətləri ilə layihə ortaqlığı etmişdir.

Rusiyada yaşamasına baxmayaraq, daima doğma Azərbaycanın yenilikləri ilə maraqlanırdı. Bir gün ölkə rəhbəri cənab İlham Əliyevin xaricdə yaşayan soydaşlara etdiyi çağırışı eşidib yenidən Azərbaycana gəlməyi və böyük bir şirkət qurmağa qərar verdi.

Yenidən Bakıya qayıdaraq “Best Bearings Company” MMC şirkətini təsis etdi. Şirkəti açaraq qarşısına məqsəd qoydu ki, ölkədə sənayenin inkişafında əsas tələb olunan ehtiyat hissələrinin satışını həyata keçirsin və xarici şirkətlərdən asılılığı azaltsın.

Daha əvvəlki təcrübələrini işə salaraq dünya markalarını ölkəyə gətirməyə başladı və yüksək keyfiyyətli məhsullarla istehsalçılarımızın tələblərini təmin etdi.
2022-ci ildə isə Rəhman Zeynalov öz brendini yaratmağa qərar verdi. Markanın adı ilə bağlı çox düşünərək öz markasına VARLI adını verdi.

Bu gün onun məqsədi – yalnız qazanmaq deyil, eyni zamanda qazandırmaqdır.










# HAQQINDA

VARLI – Azərbaycanda sənaye yastıqları, güc ötürücü kəmərlər və kipləşdirici elementlərin istehsalında lider və sertifikatlı brenddir. Biz VARLI markasını böyük qürurla inkişaf etdirir və hər bir məhsulda yüksək keyfiyyət, etibarlılıq və uzunömürlü performansı əsas prioritet kimi görürük.

VARLI məhsulları qabaqcıl texnologiyalara uyğun olaraq istehsal edilir və bütün mərhələlərdə ciddi keyfiyyət nəzarətindən keçir. Bu yanaşma məhsullarımızın həm ağır sənaye şəraitində, həm də yüksək sürət və dəqiqlik tələb edən avadanlıqlarda stabil və etibarlı işləməsini təmin edir.

Məhsul portfelimizə yüksək keyfiyyətli yastıqlar, güc ötürücü kəmərlər və kipləşdirici elementlər daxildir. VARLI məhsulları minimal sürtünmə, yüksək yüklənmə qabiliyyəti, səssiz işləmə və uzun istismar müddəti ilə seçilir. Bu xüsusiyyətlər onları istehsal, **AVTOMOBİL SƏNAYESİ, KƏND TƏSƏRRÜFATI** və **MÜXTƏLİF MEXANİKİ SİSTEMLƏR** sistemlər üçün ideal seçimə çevirir.

VARLI brendi "Best Bearings Company" MMC-nin uzun illərə əsaslanan təcrübəsi və innovativ yanaşmaları ilə dəstəklənir. Biz müştərilərimizin tələblərini aşkarlayaraq onların tələblərini qarşılayacaq məhsullar istehsal edirik.

***VARLI ilə varlanın***


VARLI


VARLI
VARLI
SYNCHRONOUS BELT
T5-450-25
VARLI
VARLI / INDIA
POWER TRANSMISSION
V-BELT A-1320 Li
VARLI / INDIA
VARLI
VARLI / INDIA
POWER TRANSMISSION
V-BELT A-1320 Li
VARLI / INDIA


VARLI
NU 212 ECM

# Tərəfdaşlarımız

TRELLEBORG
CORTECO
KASTAŞ
FEKO
Suptex




Varlı
ziligen
CHIORINO 1906
Gates
ESCON
Continental














# Tərəfdaşlarımız

Varlı

MOTION & CONTROL™ NSK

NACHi

IKO

DODGE® MADE IN USA

TIMKEN

INA SCHAEFFLER GERMANY

FAG



# DÜNYANIN ƏN YÜKSƏK YÜKDAŞIMA QABİLİYYƏTLİ YASTIQ MARKASI

*The World's leading bearing brand with the highest load capacity in the world*

NACHI

Nachi-Fujikoshi Corp. öz fəaliyyətinə 1928-ci ildə Yaponiyada başlamışdır. Şirkət ilkin olaraq dəqiq sənaye alətləri və mexaniki komponentlərin istehsalçısı kimi yaradılmışdır. Sürətlə inkişaf edərək avtomobil sənayesi, sənaye avadanlıqları və robot texnologiyaları üçün yastıqlar, hidravlik sistemlər və dəqiq mexaniki həllər istehsal edən qlobal istehsalçıya çevrilmişdir.

Nachi geniş çeşiddə yastıqlar istehsal edir: dərin yivli kürəcikli, bucaq kontaktlı, silindrik, konusvari, sferik və iynəli diyircəkli yastıqlar və ağır iş şəraiti üçün nəzərdə tutulmuş yüksək dəqiqlikli sənaye yastıqları. Nachi yastıqları **AVTOMOBİL SƏNAYESİNDƏ, SƏNAYE MAŞINLARINDA, CNC DƏZGAHLARINDA, ROBOT SİSTEMLƏRDƏ, ENERJİ** və **AĞIR SƏNAYE SEKTORLARINDA** geniş istifadə olunur. Bu məhsullar yüksək dəqiqlik, güclü yüklərə davamlılıq və uzunömürlülük tələb olunan sahələr üçün nəzərdə tutulmuşdur.






*Nachi-Fujikoshi Corp. yüksək dəqiqlikli sənaye həlləri, robot texnologiyaları və mexaniki komponentlər sahəsində dünyanın aparıcı istehsalçılarından biridir. Şirkət innovasiya, etibarlılıq və mühəndislik keyfiyyəti ilə müasir sənaye tələblərinə cavab verir.*

Bundan əlavə, Nachi hidravlik nasoslar, sənaye robotları, kəsici alətlər və dəqiq mexaniki sistemlər də istehsal edir. Bu məhsullar **AVTOMATLAŞDIRILMIŞ İSTEHSAL XƏTLƏRİ** və **ROBOTLAŞDIRILMIŞ SƏNAYE** proseslərində yüksək dəqiqlik və stabil işləmə təmin edir.

Şirkətin əsas üstünlüklərindən biri yüksək texnoloji mühəndislik yanaşması və ciddi keyfiyyət standartlarına riayət edilməsidir. Qabaqcıl materiallar və innovativ texnologiyalar sayəsində məhsullar uzunömürlü, etibarlı və səmərəli işləmə xüsusiyyətlərinə malikdir. Bu səbəbdən Nachi məhsulları sənayedə yüksək etibarlılığı və geniş tətbiq sahəsi ilə seçilir.

# DÜNYACA ETİBAR EDİLƏN DƏQİQLİK VƏ KEYFİYYƏT MARKASI

*A globally trusted brand of precision and quality.*

MOTION & CONTROL™
NSK

NSK Ltd. öz fəaliyyətinə 1916-cı ildə Yaponiyada başlamışdır. Şirkət ilkin olaraq yastıq istehsalçısı kimi yaradılmış və Yaponiyada bu sahədə fəaliyyətə başlayan ilk istehsalçısı olub. NSK sürətlə inkişaf edərək avtomobil sənayesi, sənaye maşınqayırması və dəqiq mexanika üçün komponentlər istehsal edən qlobal texnologiya şirkətinə çevrilmişdir.
NSK geniş çeşiddə yastıqlar istehsal edir: dərin yivli, bucaq kontaktlı və öz-özünü tənzimləyən kürəcikli yastıqlar, həmçinin silindrik, konusvari, sferik və iynəli diyircəkli yastıqlar və ağır iş şəraiti üçün nəzərdə tutulmuş sənaye yastıqları da təqdim edir. NSK yastıqları **AVTOMOBİL SƏNAYESİNDƏ, SƏNAYE AVADANLIQLARINDA, CNC DƏZGAHLARINDA, ENERJİ SİSTEMLƏRİNDƏ** və **NƏQLİYYAT SEKTORUNDA** geniş tətbiq olunur. Bu məhsullar yüksək dəqiqlik, etibarlılıq və uzunömürlülük tələb edən bütün sahələr üçün nəzərdə tutulmuşdur.





*NSK Ltd. yüksək dəqiqlikli yastıqlar və sənaye həlləri sahəsində dünyanın aparıcı istehsalçılarından biridir. Şirkət etibarlılıq, uzunömürlülük və innovativ texnologiyalar vasitəsilə müasir sənaye tələblərinə cavab verir.*

Bundan əlavə, NSK xətti hərəkət sistemləri, kürəcikli vintlər, xətti bələdçilər və digər dəqiq mexaniki komponentlər də istehsal edir. Bu məhsullar **ROBOT TEXNOLOGIYALARINDA** və **AVTOMATLAŞDIRILMIŞ İSTEHSAL XƏTLƏRİNDƏ** yüksək dəqiqlik və stabil işləməni təmin edir.
Şirkətin əsas üstünlüklərindən biri innovativ mühəndislik yanaşması və ciddi keyfiyyət standartlarına riayət etməsidir. NSK müasir texnologiyalar və qabaqcıl materiallardan istifadə edərək məhsulların uzunömürlü, səssiz və səmərəli işləməsini təmin edir. Bu səbəbdən NSK məhsulları sənayedə yüksək etibarlılığı və dayanıqlılığı ilə geniş şəkildə tətbiq olunur.

# Sektorlar






- **Dəmir-polad sənayesi**
  Iron-steel industry
- **Yeyinti sənayesi**
  Food industry
- **Kənd təsərrüfatı**
  Agriculture
- **Neft-qaz sənayesi**
  Oil-gas industry

- **Gəmiçilik sənayesi**
  Shipping industry
- **Mədənçıxarma sənayesi**
  Mining industry
- **Sement sənayesi**
  Cement industry
- **Kağız-sellüloz sənayesi**
  Pulp and paper industry
- **Nəqliyyat**
  Transportation
- **Energetika**
  Energy









BEST BEARINGS COMPANY
BEST BEARINGS COMPANY - BAKU, AZERBAIJAN
RULMAN VƏ MEXANİK HİSSƏLƏR
NSK
NACHI


CERTIFICATE
NSK
Best Bearings Company MMC
Authorised Distributor of
NSK Polska Sp. z o.o.
Sales of NSK Bearings and Linear Products.
This certificate will run until 31.12.2026.
Maciej Piotkowski
Sales Channel Director / NSK Europe
AUTHORISED DISTRIBUTOR


Continental
The Future in Motion
WE CONNECT, CONVEY, AND COVER
Distributor Certificate
Official Distributor 2026
The Company
Best Bearings Company LLC
In City, Region/Country
Baku, Azerbaijan
Product family/families
Power Transmission
is official distributor for ContiTech
Industrial Solutions EMEA
30165 Hanover, Germany
Jan Timmermann /
JANUARY 13th 2026


AZƏRBAYCAN RESPUBLİKASI
AzAK
AZS


AZƏRBAYCAN RESPUBLİKASI
AzAK
AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU


NACHI
CERTIFICATE
SAYGILI RULMAN A.Ş. hereby certifies
BEST BEARING COMPANY
BAKU / AZERBAIJAN
is an AUTHORIZED SUB-DISTRIBUTOR for NACHI BEARINGS
AUTHORIZED SUB-DISTRIBUTOR
Bilal SAYGILI
SAYGILI


CHIORINO
CERTIFICATE
OF AUTHORIZATION
This is to certify that
BEST BEARINGS COMPANY MMC
has been appointed as Chiorino Sp. z o.o. distributor in Azerbaijan
Aleksander Rak
President of Chiorino Sp. z o.o.
the authorization
expire on Dec. 31, 2028


IQM
Certificate
Best Bearings Company LLC
Azerbaijan- AZ 1096
Baku city, Nizami district, K. Balakishiev st., 46, apt. 53
ISO 9001:2015
Scope
Sale of spare parts for machinery and equipment
Certificate No : IQM-UK-Q-1627
Certificate Initial Issue Date : 02.01.2024
Certificate Issue Date : 01.01.2026
Certificate Expire Date : 01.01.2027
GENERAL MANAGER
IAF
IAS

# Yastıqlar



**Diyirlənmə yastıqları** daxili və xarici halqalar arasında yerləşən diyirlənmə elementləri (kürəciklər və ya diyircəklər) vasitəsilə işləyən mexaniki hissələrdir. Bu elementlər separator ilə bir-birindən ayrılaraq bərabər məsafədə saxlanılır.

İş zamanı diyirlənmə elementləri qaçış yolları üzrə hərəkət edərək sürtünməni azaldır və yükün ötürülməsini təmin edir. Bu prinsip sayəsində mexanizmlərdə daha səmərəli və etibarlı fırlanma əldə edilir.

Diyirlənmə yastıqları maşınqayırma, avtomobil sənayesi və sənaye avadanlıqlarında geniş istifadə olunur. Onlar standartlaşdırılmış şəkildə istehsal edilir və yüksək dəqiqlik, etibarlılıq və kütləvi tətbiq imkanları ilə seçilir.

### Kürəcikli yastıqlar



### Miniatür kürəcikli yastıqlar




### Kürəcikli yastıqlar (plastik qapaqlı)



### İkicərgəli kürəcikli yastıqlar



### Radial kürəcikli yastıqlar



### Konus diyircəkli yastıqlar



### İynə diyircəkli yastıqlar



### Almacıqlar



### Yataqlı yastıqlar



# Yastıqlar

### İki cərgəli diyircəkli yastıqlar



### Silindrik diyircəkli yastıqlar



### Müxtəlif növ yastıqlar



# Kəmərlər



**Kəmərlər** — iki və ya daha çox mil arasında fırlanma hərəkətinin mexaniki ötürülməsi üçün istifadə olunan elastik elementlərdir. Güc ötürülməsi şkivlər vasitəsilə həyata keçirilir və millərin eyni xətt üzrə yerləşməsi mütləq deyil.
Kəmərlər həm hərəkətin ötürülməsi, həm də mexanizmlərin sinxron işləməsi üçün istifadə olunur.
**Düz kəmərlər** aşağı sürət və kiçik moment tələb olunan sistemlərdə tətbiq edilir.
**Klinvari kəmərlər** ən geniş yayılmış növdür, yüksək fırlanma momentinin ötürülməsi qabiliyyətinə malikdir və sənaye avadanlıqlarında, avtomobillərdə geniş istifadə olunur.
**Sinxron (dişli) kəmərlər** dişli quruluşa malikdir, sürüşmənin qarşısını alır və dəqiq sinxron işləmə tələb olunan sistemlərdə istifadə olunur.




## STANDARD V-BELTS

| Type | Width (mm) | Width (inch) | Height (mm) | Height (inch) |
|---|---|---|---|---|
| Z | 10 | 3/8 | 6 | 1/4 |
| A | 13 | 1/2 | 8 | 5/16 |
| B | 17 | 21/32 | 11 | 13/32 |
| C | 22 | 7/8 | 14 | 17/32 |
| D | 32 | 1-1/14 | 19 | 3/4 |
| E | 40 | 1-1/2 | 25 | 29/32 |




## WEDGE V-BELTS

| Type | Width (mm) | Width (inch) | Height (mm) | Height (inch) |
|---|---|---|---|---|
| SPZ | 9.7 | 3/8 | 8 | 5/16 |
| SPA | 12.7 | 1/2 | 10 | 3/8 |
| SPB | 17 | 21/32 | 13 | 1/2 |
| SPC | 22 | 7/8 | 18 | 11/16 |




## NARROW V-BELTS

| Type | Width (mm) | Width (inch) | Height (mm) | Height (inch) |
|---|---|---|---|---|
| 3V | 9.7 | 3/8 | 8 | 5/16 |
| 5V | 15.8 | 5/8 | 14 | 17/32 |
| 8V | 25.4 | 1 | 23 | 7/8 |




## FRACTIONAL HORSEPOWER V-BELTS

| Type | Width (mm) | Width (inch) | Height (mm) | Height (inch) |
|---|---|---|---|---|
| 2L | 6.4 | 1/4 | 3.2 | 5/32 |
| 3L | 9.5 | 3/8 | 5.6 | 7/32 |
| 4L | 12.7 | 1/2 | 7.9 | 5/16 |
| 5L | 16.7 | 21/32 | 9.5 | 3/8 |




## HEXAGONAL/DOUBLE V-BELTS

| Type | Width (mm) | Width (inch) | Height (mm) | Height (inch) |
|---|---|---|---|---|
| AA | 13 | 1/2 | 10 | 3/8 |
| BB | 17 | 21/32 | 13 | 1/2 |
| CC | 22 | 7/8 | 17 | 21/32 |




## BANDED V-BELTS

| Type | Width (mm) | Width (inch) | Height (mm) | Height (inch) |
|---|---|---|---|---|
| HA | 13 | 1/2 | 8 | 5/16 |

# Konveyer kəmərləri



**Konveyer kəmərləri** material və məhsulların bir nöqtədən digərinə daşınmasını təmin edən sənaye ötürücü elementləridir. Onlar istehsal, logistika, mədən sənayesi, kənd təsərrüfatı və qida sənayesində geniş tətbiq olunur.

Konveyer kəmərləri yüksək möhkəmlik, aşınmaya davamlılıq və uzunömürlü işləmə xüsusiyyətləri ilə seçilir. Tətbiq sahəsindən asılı olaraq rezin, PVC, poliuretan və istiliyədavamlı materiallardan istehsal olunur.

Bu kəmərlər materialların fasiləsiz, təhlükəsiz və səmərəli daşınmasını təmin edərək istehsal proseslərinin ümumi effektivliyini artırır.

01



02



03



04



05



# Kipkəclər



**Kipkəclər (sızdırmazlıq elementləri)** fırlanan millərdə yağ və sürtkü maddələrinin sızmasının qarşısını almaq üçün istifadə olunur. Onlar müxtəlif iş şəraitinə uyğun seçilən elastik və aşınmaya davamlı materiallardan istehsal edilir.
Kipkəclər dişli ötürmələrdə, hidravlik silindrlərdə və müxtəlif mexaniki qurğularda geniş tətbiq olunur.
Onların əsas funksiyası yağlayıcı maddənin sistem daxilində saxlanılması, yüksək təzyiq altında sızmanın qarşısının alınması və eyni zamanda toz, kir və digər çirklərin mexanizmə daxil olmasının qarşısını almaqdır.

01



02



03



04



05



06



07



08



09



# Mexaniki kipkəclər



**Mexaniki kipkəclər** nasoslar, kompressorlar və digər fırlanan avadanlıqlarda maye və qaz sızmasının qarşısını almaq üçün istifadə olunan sızdırmazlıq elementləridir. Onlar mil hərəkətdə olduğu zaman sistemin hermetik işləməsini təmin edir.

Mexaniki kipkəclər yüksək təzyiqə, temperatura və sürətə davamlılığı ilə seçilir. Onların konstruksiyasında karbon, keramika, silisium karbid və müxtəlif elastomer materialları istifadə olunur.

Bu məhsullar su nasosları, kimya, qida və neft-qaz sənayesində geniş tətbiq edilir. Düzgün seçilmiş mexaniki kipkəc avadanlığın etibarlı və uzunömürlü işləməsində mühüm rol oynayır.

01



02



03



04



05



06



07



08



09



# Kürəciklər və Diyircəklər



**Kürəciklər və diyircəklər** yastıqlarda və sənaye avadanlıqlarında hərəkətin daha stabil və aşağı sürtünmə ilə ötürülməsini təmin edən əsas elementlərdir. Onlar yüksək dəqiqlik, davamlılıq və aşınmaya qarşı müqavimət xüsusiyyətləri ilə seçilir.

Kürəciklər kürəcikli yastıqlarda, diyircəklər isə diyircəkli yastıqlarda istifadə olunur. İstehsal prosesində yüksək keyfiyyətli xrom polad, paslanmayan polad və xüsusi ərintilər tətbiq edilir.

Bu komponentlər avtomobil sənayesində, sənaye avadanlıqlarında, kənd təsərrüfatı texnikasında və ağır yüklü mexanizmlərdə geniş istifadə olunur. Düzgün seçilmiş kürəcik və diyircəklər avadanlığın etibarlılığını və istismar müddətini artırır.

01



02



03



04



05



06



07



08



09



# Yağlı kəndirlər / Azbest kəndirləri




**Yağlı kəndirlər və azbest kəndirləri** yüksək temperatur, təzyiq və sürtünmə şəraitində sızdırmazlığın təmin edilməsi üçün istifadə olunan sənaye materiallarıdır. Onlar əsasən nasoslarda, klapanlarda, qazanxana sistemlərində və müxtəlif sənaye avadanlıqlarında sızmanın qarşısını almaq məqsədilə tətbiq olunur.

Yağlı kəndirlər elastik quruluşu və yağ hopdurulmuş tərkibi sayəsində hərəkətli hissələrdə etibarlı kiplik təmin edir. Azbest kəndirləri isə yüksək istiliyə davamlılığı ilə seçilir və ağır sənaye şəraitində geniş istifadə olunur.

Bu materiallar davamlılıq, möhkəmlik və uzunömürlü işləmə xüsusiyyətləri ilə sənaye sızdırmazlıq həllərində mühüm rol oynayır.

01



02



03



04



05



06



07



08



# Zəncirlər




**Sənaye zəncirləri** güc və hərəkətin ötürülməsi üçün istifadə olunan mexaniki ötürmə elementləridir. Onlar əsasən konveyer sistemlərində, kənd təsərrüfatı texnikasında, istehsal avadanlıqlarında və müxtəlif sənaye maşınlarında geniş tətbiq olunur.
Sənaye zəncirləri yüksək möhkəmlik, aşınmaya davamlılıq və ağır yüklər altında etibarlı işləmə xüsusiyyətləri ilə seçilir. Ən çox istifadə olunan növlərə diyircəkli zəncirlər, konveyer zəncirləri və xüsusi təyinatlı sənaye zəncirləri daxildir.
İstehsal prosesində karbon polad, paslanmayan polad və xüsusi ərintilərdən istifadə olunur. Düzgün seçilmiş və vaxtında baxımı aparılmış zəncir sistemin stabil, təhlükəsiz və uzunömürlü işləməsini təmin edir.













# Yağlar



**Sənaye yağları** avadanlıqlarda sürtünmənin azaldılması, aşınmanın qarşısının alınması və mexanizmlərin stabil işləməsinin təmin edilməsi üçün istifadə olunur. Onlar həmçinin temperaturun tənzimlənməsinə və avadanlığın istismar müddətinin uzadılmasına kömək edir.

Sənaye yağları mühərriklərdə, reduktorlarda, hidravlik sistemlərdə, kompressorlar və müxtəlif sənaye avadanlıqlarında geniş tətbiq olunur. Tətbiq sahəsindən asılı olaraq hidravlik, transmissiya, kompressor və yüksək temperaturlu yağ növləri mövcuddur.

Keyfiyyətli sənaye yağları sistemin daha təhlükəsiz, səssiz və uzunömürlü işləməsini təmin edir.















# BİZİMLƏ ƏLAQƏ

+994 50 250 20 16

+994 50 250 20 18

info@bestbearings.az

www.bestbearings.az

best_bearings_company

Best Bearings Company

Best Bearings Company

Best Bearings Company